# Nəzakət MƏMMƏDOVA-60



Hörmətli Nəzakət xanım!

Sizi - tanınmış şair və publisisti yubileyiniz münasibətilə təbrik edirik.

Siz Azərbaycan Dövlət Pedaqoji Universitetinin psixologiya fakültəsini bitirmisiniz. 1987-ci ildə Xətai rayonundakı 251 saylı uşaq bağçası - körpələr evində əmək fəaliyyətinə başlamısınız. Sonra Nizami Rayon Təhsil Şöbəsində işləmiş, 2002-ci ildən isə Respublika Xatirə Kitabı redaksiyasında əməkdaşlıq etmisiniz. Hazırda redaksiyanın baş redaktorusunuz. Eyni zamanda "Yada düşdü" adlı ədəbi-bədii jurnalın təsisçisisiniz. "Kitab evi" ictimai birliyinin icraçı direktorusunuz. "Ömrüm", "Ömrün qatarı" və Türkiyədə çapdan çıxmış "Saralmış yarpağa bənzəyir ömrüm" kitablarının müəllifisiniz. Şeirləriniz bir neçə dilə tərcümə edilmişdir. Mətbuat səhifələrində tez-tez şeirlərinizlə çıxış edirsiniz. 2018-ci ildə "Yurd dediyim bu torpaq" kitabınız çapdan çıxıb. Kitabda "Şəhid zirvəsi" poemanız da yer almışdır. Tehranda "Ərdəbilim" adlı şeirlər toplunuz nəşr olunmuşdur. Təsisçisi və baş redaktoru olduğunuz "Yada düşər" jurnalı ötən illər ərzində təkcə ölkəmizdə deyil, həm də onun hüdudlarından kənarda böyük oxucu auditoriyası qazanmışdır. Jurnal milli-mənəvi dəyərlərimizin təbliğində, Azərbaycanın görkəmli şəxsiyyətlərinin tanıdılmasında, dünyasını dəyişmiş məşhur elm, ədəbiyyat, incəsənət xadimlərinin yad edilməsində, ədəbi gəncliyin ən son uğurlarının işıqlandırılmasında müstəsna rol oynayır. Respublika Mətbuat Şurasının, Türk Dünyası Ədəbiyyat Dərgiləri Birliyinin üzvü olan "Yada düşdü" jurnalının Türkiyədə və Rusiyada təmsilçiləri vardır. Bundan başqa İran, İraq, Şimali Kipr Türk Respublikası, Bosniya, Dağıstan, Qırğızıstan, Özbəkistan, Qazaxıstan ilə ədəbi əlaqələriniz mövcuddur. Tehranda nəşr edilən "Xudafərin" jurnalı ilə "Yada düşdü" jurnalı qardaşlaşmış dərgilər kimi fəaliyyət göstərir. Sizin yaradıcılıq uğurlarınız Rəsul Rza mükafatı, Mikayıl Müşfiq mükafatı, Həzi Aslanov yubiley medalı, Rusiya Federasiyasının "Qələbə-75" medalı, Moskvanın "Dostoynaya pamyat" Fondu tərəfindən "Qələbənin varisi" döş nişanı ilə dəyərləndirilmişdir. 20 ilə yaxın fəaliyyət göstərdiyiniz Respublika Xatirə Kitabı redaksiyasının tərtib etdiyi "Xatirə kitabı"nın 16 cildi çapdan çıxıb. "Şəhidlər ölməz, Vətən bölünməz" seriyasından beş şəhid haqqında kitab işıq üzü görüb. Redaksiya hər il bir şəhid haqqında kitab hazırlamağı nəzərdə tutur. 2017-ci ildə rəhbərlik etdiyiniz Respublika Xatirə Kitabı Redaksiyası daha bir məsuliyyətli layihəni gerçəkləşdirməyə başlamışdır. Respublika Dövlət Təhlükəsizliyi Xidməti nəzdində fəaliyyət göstərən Əsir və İtkin Düşmüş, Girov Götürülmüş Vətəndaşlarla Əlaqədar Dövlət Komissiyasının işçi qrupu ilə aparılan bu iş birliyinin məqsədi Azərbaycan Respublikasının ərazi bütövlüyünə təcavüz etmiş Ermənistanın əzəli-əbədi torpaqlarımız olan Dağlıq Qarabağ və ətraf rayonlara hücumu və işğalı zamanı əsir və girov götürülmüş, həmçinin müəmmalı şəkildə itkin düşmüş hərbçi və mülki şəxslərimizin talelərinin araşdırılması əsas prioritet götürülmüşdür. İtkin düşmüş 3888 vətəndaşımız barədə məlumatlar yenidən ciddi araşdırılmış və Rüspublika Xatirə kitabının 4 cildlik xüsusi buraxılışına daxil edilmişdir. Vətən müharibəsi şəhidlərinin adlarını əbədiləşdirəcək 3 cildlik "Tarixi zəfər" kitabı çapa hazırlanır. Siz Vətən müharibəsi şəhidləri haqqında "Vətən daşı... və ya 44 günün dastanı" film layihəsinin müəllifisiniz.

Hörmətli Nəzakət xanım, sizi bir daha yubileyiniz münasibətilə təbrik edir, sizə uzun ömür, cansağlığı, yeni-yeni yaradıcılıq uğurları arzulayırıq.

**Azərbaycan Yazıçılar Birliyi**